# "Dünyamızın bəzəyidir insanlar"

**Mənə müəllifin avtoqrafıyla bir kitab bağışlanıb. Yaxından tanıdığım, yaradıcılığına bələd olduğum bu müəllif insan kimi də həmişə mənim üçün maraqlı olub. Öz səmimiyyəti, həlimliyi, bir da az insanlara yanımı ilə diqqətimi çəkib. Birlikdə də çalışmışıq. Bu yol yoldaşlığı - iş yoldaşlığı onu bir az da dərindən tanımağımda yardımçım olub və beləcə ayların, günlərin birində hiss etmişəm ki, bu insan mənim üçün əziz adamdı. Bax, elə o əziz adamın mənə bağışladığı və ürəyinin hərarəti ilə yazdığı avtoqraflı kitabını mən də bütün bu duyğuların içərisində qəbul edib, oxuyub, tanış oldum.**

Bu kitabda oxuculara toplum şəkildə təqdim edilən oçerklərin, müsahibələrin, publisist yazıların bir çoxunu dövrü mətbuatdan oxuyub tanış olmuşdum. Ona görə də kitabı birnəfəsə oxumaq mənim üçün çətin olmadı və üstəlik kitabı gözdən keçirdikcə həmin o ötən günlər də yaddaşımda təzələndi.

Bəli, bu kitabın müəllifi qocaman jurnalist İdris Hacızadədir. Müəllif özü haqqında, kitabın ilk vərəqində yazır: "Mən 50 ildən artıq bir müddətdə ürəkdən bağlandığım məsul və şərəfli jurnalist peşəsinə həmişə sadiq qalmış, Azərbaycan vətəndaşı olaraq, qələmə aldığım hər bir yazımda azərbaycançılığı, dövlətçiliyi, ölkə rəhbərinin daxili və xarici siyasətini obyektiv şəkildə işıqlandırmışam... Jurnalistika sahəsində heç bir karyera qazanmasam da, təmiz adımı indiyə kimi qoruya bildiyimə görə özümdən razıyam...".

Zənnimcə, İdris müəllimin sizə, bizə, bütövlükdə oxuculara etdiyi bu etiraf əslində, onun bir qələm adamı kimi saflığının, böyüklüyünün ifadəsidir. Yəni, o, söz məkanında nə üçün və kim olduğunu tam səmimi bir şəkildə dilə gətirib. Bu da kifayət edir ki, İdris müəllimin mən görə bildiyim ürəyini, özəl dünyasını siz oxucular da görə biləsiniz.

Ömrünün 75-ci ilini yola salan müəllifin "Dünyamızın bəzəyidir insanlar" kitabı nəfis şəkildə tərtib olunub və oxucuların ixtiyarına verilib. Kitabda Azərbaycanın, bütün zümrələrdən olan dəyərli insanları barəsində müəllifin müxtəlif janrlı yazıları toplanıb. Şəxsən mənim üçün bu kitabda İdris müəllimin söz-sənət adamları ilə olan müsahibələri, onlar barəsində publisist yazıları böyük maraq yaratdı. İstər Xalq şairi Bəxtiyar Vahabzadənin, böyük alimimiz Xudu Məmmədovun, Azərbaycanın caz sənətinin ulduzu sayılan Vaqif Mustafazadənin, ədəbiyyatşünas alim Azad Nəbiyevin, hamımızın qürur duyduğumuz Ramil Səfərovun, əvəzolunmaz müğənnilərimiz, Xalq artistləri Rübabə Muradovanın, Gülxar Həsənovanın, Şövkət Ələkbərovanın, Flora Kərimovanın və digərlərinin barəsindəki dəyərli yazıların hər birinin arxasında İdris müəllimin kövrək ürəyi dayanır. Bu ürək onun özünün etiraf etdiyi kimi, azərbaycançılığı, dövlətçiliyi hər şeydən üstün tutub. Bu kitabda həmçinin döyüş yolu keçən, Qarabağ savaşında güllələrin, düşmənin üstünə gözüyumulu gedən oğullar barəsində də maraqlı yazılar var. Yeri gəlmişkən, onu da qeyd edim ki, hörmətli İdris müəllim, sizin sözə canlı varlıq kimi yanaşan, əlinə qələm alan gündən sözü əllaməçilikdən qoruyan, hər bir durğu işarəsinin belə, üstündə əsən, hər bir fikrə obraz kimi yanaşan və nəhayət sözü hər şeydən üstün tutaraq həqiqi söz sahibi haqqını qazanan layiqli jurnalist olduğunuza birlikdə işlədiyimiz müddətdə əmin oldum.




Bu məqamda onu da vurğulayım ki, İdris müəllim müəyyən səbəblər üzündən unudulan, diqqətdən, qayğıdan kənarda qalan sənət adamlarını da arayıb-axtarıb, onlar barəsində bu kitabda oxuculara sözünü, fikrini çatdırıb. Bəlkə də bu onun özünün də diqqətdən kənarda qalmasına bir mesajdı, yaxud da o, bununla unudulmağın, diqqətsizliyin, haqqını almamağın nə olduğunu, yəni özünün bu üzdən nə çəkdiyini dolayısı ilə bizlərə xatırladıb. Əgər belədirsə, İdris müəllim tamamilə haqlıdır. Elə həmin haqdan da çıxış edərək həmkarımız, dəyərli İdris Hacızadəyə bildirmək istəyirəm ki, bu dünya sizin özünüz də yaxşı bildiyiniz kimi, bəzən etinasızların daha çox təsiri altında olur. Onu da deyim ki, çox zaman çəkdiklərimiz də elə dünyanın bəzəyi, əşrəfi olan insanların əlindəndir. Amma sonda hər şeyi yoluna qoyan Allahdır, onun ilahi ədalətidir. Siz də bizim inamımıza görə, Allah adamısınız. Və bir də hamımız yaxşı bilirik ki, uca Tanrı öz yaratdıqlarına həmişə diqqət yetirib. Maraqlıdır ki, siz də kitabınızın adındakı kimi, insanları yer üzünün bəzəyi kimi görürsünüz. Təəssüflənməyin, bu həyatın hər üzü var, ona görə də bəndələr unutsa da, Allah sizi unutmasın! Elə bu istəklə də sizin bu dəyərli kitabınıza mən də "uğurlu olsun!" - deyirəm və kitabın adında vurğuladığınız "Dünyamızın bəzəyidir insanlar" deyən siz - təmiz, dürüst, saf, vicdanlı insanların hələ də var olduğuna, çox olduğuna inanan təmiz qəlbli İdris Hacızadəyə xatırladırıq ki, siz özünüz də dünyanın bəzəyi olan insanlardansınız.

**Fəridə RƏHİMLİ**

Ədalət.- 2016.- 28-29 iyul.- S. 4.